# Mülki təhsil testi

## Təlimat

Qarşınızdakı imtahan testinin elektron bukletidir.

Tapşırıqların təlimatı ilə diqqətlə tanış olun, hər bir tapşırığın şərtini yaxşı düşünün və sonra cavab verin.

Testin maksimal balı 55-dir.

Testi yerinə yetirmək üçün sizə 4 saat vaxt verilir.

Sizə uğurlar arzulayırıq!

## Təlimat

- **Seçimli cavabı olan tapşırıq (1-12, 19.1, 23.1, 23.2)**

Hər suala dörd ehtimal cavab verilir. Onlardan yalnız biri düzgündür. Cavablar vərəqində düzgün cavabın müvafiq xanasında **X** işarəsi qoyun. Başqa heç bir qeyd elektron proqram tərəfindən qəbul edilmir. İşarə edilmiş cavabı düzəltmək istəsəniz, **X** işarəsi qoyulmuş xananı bütünlüklə rəngləyin və sonra cavabın yeni variantını seçin. Düzəldilmiş cavabın təkrar seçilməsi qeyri-mümkündür. Hər tapşırıq 1 balla qiymətləndirilir.

(1) **1. Gürcüstan Konstitusiyasına əsasən, hansı halda yaradıcılıq əsərinin yayımlanmasına qadağa qoyulmasına icazə verilir?**

ა) Məhkəmənin qərarı ilə, əgər əsərin yayımlanması başqalarının hüquqlarını pozursa;

ბ) Prokurorluğun tələbi ilə, əgər əsər cəmiyyətin əxlaqi normalarına uyğun deyilsə;

გ) Parlamentin qərarı ilə, əgər əsər tarixi cəhətdən səhv və ya təsdiqlənməmiş məzmun daşıyırsa;

დ) Mədəniyyət Nazirliyinin qərarı ilə, əgər əsərin yayımlanması ilə ənənəvi dəyərlər üçün təhlükə yaranırsa.

(1) **2. Sadalananlar arasında hansı amil dövlətin demokratik sisteminin sabitliyinin pozulmasına səbəb ola bilər?**

ა) Siyasi polarizasiya;

ბ) Mədəni inteqrasiya;

გ) Partiya kohabitasiyası;

დ) Sosial inklüziya.

(1) **3. Gürcüstan Konstitusiyası ilə müəyyən edilmiş proses hüququ pozulur o halda, əgər:**

ა) İttihamın sübut edilməsi öhdəliyi ittiham edənin üzərinə düşürsə;

ბ) Şəxs eyni cinayət üçün təkrar məhkum edilərsə;

გ) Qanun pozuntusu ilə əldə edilmiş sübutun hüquqi qüvvəsi olmazsa;

დ) Şəxs, işi hansı məhkəmənin yurisdiksiyasına daxildirsə, həmin məhkəmə tərəfindən mühakimə olunarsa.

(1) **4. İnflasiya səbəblərindən biri nə ola bilər?**

ა) Rəqəmsal texnologiyaların sürətli inkişafı;

ბ) Şirkətlər arasında yüksək rəqabət;

გ) Kreditin faiz sahəsinin çoxalması;

დ) Pulun çatdırılmasının artması.

(1) **5. Müəyyən mal və xidmətlərin istehsalı zamanı ixtisaslaşmaya yönəlmə istehsal prosesinə necə təsir edir?**

ა) İstehsalın effektivliyi xeyli artır və müəyyən sahədə səhvlərin buraxılması azalır;

ბ) Dəyişkən mühitə adaptasiya və müəyyən sahədən kənarda yeni imkanların axtarışı asanlaşır;

გ) Dərin biliyin əldə edilməsinə az diqqət verilsə də, ümumi bacarıqların inkişafına dəstək verilir;

დ) Rolların paylanmasında qeyri-müəyyənlik artır və bu da fərdi məsuliyyəti azaldır.

(1) **6. Sadalananlar arasında hansı yerli rüsumdur?**

ა) Təbii resurslardan istifadə üçün rüsum;

ბ) Yaşayış ərazisinin təmizlənməsi üçün rüsum;

გ) Lotereyanın təşkili üçün təyin edilmiş oyun biznesi üçün rüsum;

დ) Müddətli milli hərbi xidmətə çağırışın təxirə salınmasına görə rüsum.

(1) **7. Sxem ikiölçülü siyasi spektri əks etdirir. Sual işarəsinin əvəzinə nə yazılmalıdır?**




ა) Kommunizm;

ბ) Konservatizm;

გ) Sosial demokratiya;

დ) Liberal demokratiya.

(1) **8. Gürcüstan Qanunvericiliyinə əsasən, munisipalitetin yaranmasının və ya ləğvinin səbəbi nə ola bilər?**

I. Munisipalitetin iki və ya daha çox minisipalitetə bölünməsi.

II. Munisipalitet ərazisinin hissəsinin investora verilməsi.

III. Bir-biri ilə həmsərhəd olan munisipalitetlərin bir munisipalitetdə birləşməsi.

ა) Yalnız I və II;

ბ) Yalnız II və III;

გ) Yalnız I və III;

დ) Hər üçü.

(1) **9. Gürcüstan Qanunvericiliyinə əsasən, mediasiya prosesini apardıqda, mediatorun hansı səlahiyyəti var?**

I. İşin mühitlərini nəzərə almaqla, mediasiya prosesində tərəfin və ya tərəflərin bilavasitə iştirakını tələb etsin.

II. Tərəflərlə həm birlikdə, həm də fərdi kommunikasiya vasitəsilə mediasiya aparsın.

III. Tərəflər arasında mövcud mübahisə ilə bağlı qərarı özü qəbul etsin.

ა) Yalnız I və II;

ბ) Yalnız II və III;

გ) Yalnız I və III;

დ) Hər üçü.

(1) **10. Hansı mülahizə müasir dövlətlərdə mülki millətçiliyin mahiyyətini düzgün ötürür?**

ა) Milli birlik etnik və dini mənsubiyyət əsasında formalaşır, mülki hüquqlar və cəmiyyətin geniş siyasi iştirakı isə ikincidərəcəlidir;

ბ) Dövlətdə birlik tarixi ənənələrə və mədəni irsə əsasən əldə edilir, ümumi hüquqi prinsiplərə və demokratik mexanizmlərə isə az əhəmiyyət verilir;

გ) Milli birlik əsasən hüqüqi qayda-qanuna və vətəndaşların öhdəliklərinin icrasına əsaslanır, halbuki siyasi iştirak məhduddur və mədəni rəngarənglik az tanınır;

დ) Vətəndaşların birləşməsi ümumi hüquqi çərçivə, mülki hüquqlar və öhdəliklər əsasında baş verir, bu da müxtəlif etnik qrupların inteqrasiyasını və onların demokratik proseslərə aktiv qoşulmasını təmin edir.

(1) **11. Cədvəl mənşə ölkəsinə əsasən sığınacaq axtaranların tam sayı haqqında məlumatı əks etdirir:**

| Ölkələr | 2010 il | 2015 il | 2023 il | Nisbi dəyişiklik 2015-2023 |
|---|---|---|---|---|
| Argentina | 84 | 160 | 4 388 | +2 643% |
| Ermənistan | 2 947 | 8 491 | 18 378 | +116% |
| Azərbaycan | 2 072 | 5 212 | 6 777 | +30% |
| Belarus | 737 | 1 472 | 11 837 | +704% |
| Belçika | 6 | 37 | 149 | +303% |
| Gürcüstan | 7 185 | 9 245 | 38 556 | +317% |
| İsveç | 28 | 15 | 175 | +1 067% |
| Tanzaniya | 194 | 1,577 | 2 954 | +87% |

## Hansı mülahizə cədvəlin məlumatlarına uyğundur?

ა) Mənşə ölkələrinə əsasən, sığınacaq axtaranların sayı illərə əsasən hər yerdə bərabər şəkildə artandır;

ბ) 2010-2015-ci illərdə Argentinadan sığınacaq axtaranların sayı 2015-2023-cü illərdəki qədər artdı;

გ) 2023-cü ildə postsovet ölkələri arasında ən çox sığınacaq axtaranlar Gürcüstandandır;

დ) Mənşə ölkələrinə əsasən, sığınacaq axtaranların nisbi dəyişikliyi Avropa ölkələrində ən yüksəkdir.

(1) **12. İnfoqrafika Gürcüstan statistika məlumatlarına görə, 2024-cü ildə Gürcüstan əhalisinin siyahıyaalınmasının ilkin nəticələrini əks etdirir:**






## Hansı mülahizə infoqrafika məlumatlarına uyğundur?

ა) Gürcüstanın bütün regionlarında əhalinin artımının pozitiv dinamikası qeydə alınır;

ბ) Sameqrelo-Zemo Svaneti və Kaxeti birlikdə daha çox əhalini birləşdirir, nəinki Tbilisi;

გ) Msxeta-Mtianeti bölgəsində əhalinin sayı Acarıstan bölgəsində olduğu kimi artdı;

დ) Quriyada əhalinin 2014-cü illə müqayisədə ən çox azalmasına baxmayaraq, orada yenə də daha çox insan yaşayır, nəinki Raça-Leçxumi və Kvemo Svanetidə.

## Təlimat

**Ardıcıllığın müəyyən edilməsi (№13)**

Tapşırıqda verilmiş siyahını göstərilmiş prinsipə uyğun olaraq düzün. Cavabları cavab vərəqəsində verilən xanalarda yazın. Nəzərə alın ki, xanaya ancaq seçilmiş cavabın rəqəmi yazılır. Balların maksimal miqdarı tapşırığın qarşısında verilmişdir.

(1) **13. Beynəlxalq təşkilatları onların yaranma tarixinə əsasən xronoloji ardıcıllıqla sıralayın:**




| | | | | |
|---|---|---|---|---|
| | | | **4*** | |

* Cədvəldə doğru cavab göstərilib.

## Təlimat

**Uyğunluğun müəyyənləşdirilməsi (№14, 15, 16)**

Tapşırıqda iki sütunda müxtəlif növ siyahı verilmişdir. Bu iki sütunda təqdim olunan məlumatlar arasındakı uyğunluqları müəyyən edin. Cavabları cavab vərəqində verilmiş cədvəldə yazın. Balların maksimal miqdarı tapşırığın qarşısında göstərilmişdir.

(2) **14. Münaqişə vəziyyətində danışıqlar prosesində iştirakçılar müxtəlif strategiyalardan istifadə edirlər. Danışıqlar prosesində davranış yanaşmalarını danışıqlar aparan şəxslərin xarakterik xüsusiyyətləri ilə uyğunlaşdırın:**

<table>
<tr><th></th><th>I. Danışıqlar aparan şəxslərin xarakterik xüsusiyyətləri</th><th>II. Davranış yanaşmaları</th></tr>
<tr><td>ა)</td><td>▪ Pessimist;<br>▪ Özünü kənara çəkən;<br>▪ Riskə getməyən;<br>▪ Prinsip: “Heç bir kommunikasiya”</td><td rowspan="4">1. Hakimiyyətə yönəlmə<br><br>2. Nəticəyə yönəlmə<br><br>3. Status-kvoya yönəlmə<br><br>4. Dostluğa yönəlmə</td></tr>
<tr><td>ბ)</td><td>▪ Praqmatik;<br>▪ Barışdırıcı;<br>▪ Strategiya quran;<br>▪ Prinsip “İkitərəfli kommunikasiya”</td></tr>
<tr><td>გ)</td><td>▪ Güzəştə gedən;<br>▪ Uyğunlaşan;<br>▪ Rəqabətsiz;<br>▪ Prinsip: “Hərtərəfli kommunikasiya”</td></tr>
<tr><td>დ)</td><td>▪ Aqressiv;<br>▪ Manipulyativ;<br>▪ Əməkdaşlıq etməyən;<br>▪ Prinsip: “Bir yol – mənim yolum”</td></tr>
</table>

(2) **15. I sütunda verilən müxtəlif dünyagörüşlərini əks etdirən sitatları II sütunda verilən siyasi ideologiyalara uyğunlaşdırın:**

| I. Sitatlar | II. Siyasi ideologiyalar |
|---|---|
| ა) “İctimai ənənələr mövcuddur, çünki onlar cəmiyyətə özünü təkrar istehsal etmək imkanı verir. Əgər onları ehtiyatsızlıqla məhv etsən, bununla bir nəslin növbəti nəsilə təqdim etdiyi zəmanəti də silmiş olarsan.” | 1. Anarxizm<br>2. Liberalizm<br>3. Sosializm<br>4. Ekologizm<br>5. Konservatizm |
| ბ) “Kimyəvi maddələrin bioloji təsiri tədricən, uzun müddət ərzində toplanır. [...] İnsan təbiətinə xasdır ki, gələcək fəlakətin qeyri-müəyyən təhlükəsi kimi görünə biləcək şeyləri diqqətdən kənarda qoyuruq.” | |
| გ) “Cəmiyyətdə insanın azadlığı odur ki, o, dövlətdə razılıq əsasında qəbul edilən qanunvericilikdən başqa heç bir digər qanunverici hakimiyyətə tabe olmasın. Eləcə də qanunvericinin ona verilmiş etimad çərçivəsində qəbul edəcəyi qanunlardan başqa hər hansı bir iradəyə tabe olmasın və ya hər hansı bir qanunla məhdudlaşdırılmasın.” | |
| დ) “Dövlətin hərəkəti zorakılıqdır və o, öz zorakılığını “qanun” adlandırır, fərdlərin zorakılığını isə - “kriminal”. [...] Fərd dövlətin ondan yüksəkdə durmadığını, əksinə özünün dövlətdən yüksəkdə dayandığını düşündükdə, yalnız kriminal yolu ilə dövlətin zorakılığına üstün gəlir.” | |
| ე) “Fəhlə sinfi ümumi və bərabərhüquqlu səsvermə hüququna əsaslanan müstəqil siyasi partiya formalaşdırmalıdır: bu, onun bayraqlarında həkk olunmalı və onun fəaliyyətinin mərkəzi prinsipi olmalıdır. Fəhlə sinfinin ölkənin qanunverici orqanlarında təmsil olunması bir fakta çevrilməlidir.” | |

(1) **16. Xəritə 2026-cı ildə dünyanın müxtəlif ölkələrində iqtisadi azadlıq indeksini əks etdirir. I sütunda verilən ölkələri II sütunda verilən iqtisadi azadlıq kateqoriyalarına uyğunlaşdırın:**




| I. Ölkələr | II. İqtisadi azadlıq kateqoriyaları: |
|---|---|
| ა) Norveç | 1. Repressiya olunmuş<br>2. Əksərən qeyri-azad<br>3. Mötədil azad<br>4. Əksərən azad<br>5. Azad |
| ბ) Avstraliya | |
| გ) Argentina | |
| დ) İspaniya | |
| ე) İran | |

## Təlimat

**Səhvin düzəldilməsi (№17)**

Tapşırıqda verilmiş mətndə faktiki səhvlər buraxılmışdır (tarix, termin, ad və s.). Onları tapın və düzəldin. Tapılmış səhvi və onun düzəldilmiş variantını cavab vərəqəsində verilmiş cədvəldə yazın (səhvi - I sütuna, düzəldilmiş variantı - II sütuna). Nəzərə alın ki, hər bir tapılmış səhvə onun düzəldilmiş variantı ilə birlikdə 1 bal verilir. Balların maksimal miqdarı tapşırıqların qarşısında göstərilmişdir.

(7) **17.** **Mətni diqqətlə oxuyun, səhvləri tapın və düzəldin:**

**Vətəndaşlıq və siyasi mədəniyyət**

Vətəndaşlıq təkcə hüquqi status deyil, eləcə də cəmiyyətin inkişafının dinamik prosesinin bəhrəsidir. Vətəndaşlıq şəxsin partiya ilə hüquqi-siyasi əlaqəsini, fərdin hüquqlarını və öhdəliklərini nəzərdə tutur. Vətəndaşlıq mülki mədəniyyətlə sıx bağlıdır – dəyərlərin, normaların və davranış qaydalarının birliyi ilə və bunlar da vətəndaşların siyasi proseslərə cəlb olunmasını təmin edirlər. Yüksək siyasi mədəniyyət ölkənin sabitliyinin və demokratiya səviyyəsinin başlıca müəyyənləşdiricilərindən biridir.

Hakimiyyətin legitimasiyası siyasi sistemin həyat qabiliyyətinin əsasıdır. Gürcüstanda 1989-cu ilin aprelin 9-da müstəqillik bərpa olunduqdan sonra vətəndaş müharibəsi və iqtisadi böhranlar vətəndaşların hökumətə olan etimadını əhəmiyyətli dərəcədə sarsıltdı. Nəticədə leqitimasiya böhranı yarandı və bu da bir çox hallarda siyasi apatiya və ya kütləvi etirazlarla ifadə olunurdu.

Bu böhranın ən kəskin təzahürü 2003-cü ilin "Narıncı İnqilab" oldu, o zaman cəmiyyətin seçkilərin saxtalaşdırılmasına görə narazılığı kəskin etirazlar formasını aldı. Bu hadisə vurğulayır ki, inqilab nəinki hakimiyyətin dəyişməsi, həm də siyasi mədəniyyətin dəyişdirilməsi üçün də bir alətdir.

*Mətnin ikinci səhifəsinə keçid*

Gürcüstanda siyasi proseslər hər zaman ideologiyaların təsiri altında olub. 1918-1921-ci illərdə sosial-demokratik ideyalar müstəqil respublikanın kursunu müəyyən edirdi, müasir mərhələdə isə liberal və demokratik dəyərlərə olan canatma ölkənin Avrasiya meyillərini şərtləndirdi.

Müasir demokratik dövlətin quruculuğu üçün etnosentrizm vacibdir. Bu,  etnik və dini rəngarəngliklə izah olunur və vahid siyasi məkanda fərqli identliklərin harmonik şəkildə birgə mövcudluğu üçün bərabər vətəndaşlığın təmin edilməsini tələb edir.

Siyasi təmsilçilik vətəndaşların idarəetmədə iştirak etdiyi əsas mexanizmlərdən biridir. Birbaşa demokratiya məhz bu ideyaya əsaslanır ki, seçicilərin maraqlarını onların seçdikləri liderlər ifadə edirlər. Bu prosesdə həlledici rolu seçkilər oynayır. Seçkilər nəinki hakimiyyətin legitimliyinin əsas mənbəyi, eləcə də vətəndaşların siyasi fəallığının indikatorudur.

Seçki sistemləri seçicilərin səslərinin real mandatlara necə çevriləcəyini şərtləndirir. Hegemon seçki sistemində hər bir partiyanın deputatlarının sayı, onlar tərəfindən alınan səslərin faizinə uyğun olaraq müəyyənləşdirilir. Majoritar seçki sistemində, hər bir seçki dairəsində ən çox səs toplayan namizəd seçilmiş hesab olunur, digər namizədlərə verilən səslər isə mandata çevrilmir və seçici səslərinin bir hissəsi itirilir. Müvafiq olaraq, partiya sistemləri seçki qaydaları ilə birbaşa əlaqəlidir və siyasi rəqabət səviyyəsini və institusional strukturu müəyyənləşdirir.

*Mətnin birinci səhifəsinə qayıtmaq*

## Təlimat

**Açıq tipli tapşırıq (№18, 19.2, 19.3, 20, 21, 22, 23.3-23.7)**

Tapşırığın şərti ilə diqqətlə tanış olun. Cavab vərəqinin müvafiq yerinə tapşırığın şərtinə uyğun, konkret və aydın formalaşdırılmış cavab yazın. Balların maksimal miqdarı hər tapşırığın qarşısında göstərilmişdir

(4) **18. Sxem müxtəlif idarəetmə formasını və onların müvafiq xüsusiyyətlərini tam əks etdirmir. Sxemi doldurun:**

| İdarəetmə formaları | İdarəetmənin təsviri | Dövlət nəzarəti mexanizmləri | Media azadlığının səviyyəsi |
|---|---|---|---|
| **Oliqarxiya** | 18.1 | İqtisadi təsirlər, korrupsiya əlaqələri, siyasi lobbi | Məhdud, tez-tez nəzarət altındadır |
| **Diktatura** | Hakimiyyət bir nəfərin əlindədir | Güc strukturları, senzura, siyasi repressiyalar | 18.2 |
| 18.3 | Dövləti dini şəxs və ya dini qurum idarə edir | Dini qanunlar, dini məhkəmələr, əxlaq polisi | Ciddi dini senzura, media dini təsisatlar tərəfindən nəzarət olunur |
| **Demokratiya** | Xalq dövləti birbaşa və ya nümayəndələr vasitəsilə idarə edir | 18.4 | Yüksək, media müstəqil və plüralistdir |

(3) **19. 2024-cü ilin dünya xəritəsi legendasız verilib. Xəritənin analizi əsasında suallara cavab verin:**



(1) **19.1 Verilən xəritədə nə təsvir olunub?**

ა) Qlobal sülh indeksi;

ბ) İnsani inkişaf indeksi;

გ) Akademik azadlıq səviyyəsi;

დ) Əhalinin dindarlıq səviyyəsi.

(1) **19.2 Xəritənin göstəricilərinə əsasən, dünyada ən aşağı göstəricisi olan iki ölkəni adlandırın.**

(1) **19.3 Qərbi Avropa ölkələrində mövcud vəziyyəti və bu vəziyyəti əmələ gətirən səbəbləri müzakirə edin.**

(5) **20. Tapşırıqda məktəb layihəsinin məqsədləri, məsələləri və həyata keçirmə yollarının natamam variantı verilmişdir. Məktəb layihəsinin verilmiş hissəsinin tam şəkil alması üçün tapşırıqları aşağıdakı ardıcıllıqla yerinə yetirin:**

I. Cədvəldə verilmiş həyata keçirmə yollarının siyahısından irəli gələrək, II məsələni müəyyən edin və yazın; *(tapşırıq 20.2)*

II. Cədvəldə verilən I məsələnin həyata keçirilməsinə dəstək verəcəyini düşündüyünüz üç müxtəlif yolu yazın; *(tapşırıq 20.3)*

III. Layihənin hər iki məsələsindən və onların həyata keçirilmə yollarından irəli gələrək, əldə edilməsi mümkün olan layihənin məqsədini müəyyən edin və yazın. *(tapşırıq 20.1)*

| | | |
|---|---|---|
| (1) | 20.1 | <u>**Layihənin məqsədi:** (*Verilən məsələlərdən və həyata keçirilmə yollarından irəli gələrək, əldə edilə bilən məqsədi yazın*).</u> |
| (1) | 20.2 | <u>**Layihənin I məsələsi:**</u><br>**Şagirdlər tərəfindən erkən nikahın zərərli nəticələrinin başa düşülməsi.**<br><br><u>**Layihənin II məsələsi:**</u> *(II məsələnin həyata keçirilmə yollarından irəli gələrək, konkret bir məsələni müəyyən edin və yazın).* |
| (3) | 20.3 | <u>**I məsələnin həyata keçirilmə yolları:**</u> *((verilən məsələni həyata keçirmək üçün 3 müxtəlif yolu yazın).*<br>1<br>2.<br>3.<br><u>**II məsələnin həyata keçirilmə yolları:**</u><br>1. Dəvət olunmuş hüquqşünas tərəfindən məktəb cəmiyyəti üçün seminarın keçirilməsi: “Gürcüstan Qanunvericiliyi və erkən nikah;”<br>2. Şagirdlər tərəfindən məktəb sərgisinin təşkili: “Erkən yaşda nikahın qarşısının alınması mexanizmləri.”<br>3. Şagirdlər tərəfindən “Erkən nikah cinayətdir” adlı məlumat broşürlərinin hazırlanması və icmada yayılması.” |

(4) **21.** İllüstrasiya ilə tanış olun və suallara cavab verin:




(1) 21.1 İllüstrasiyanın əsas ideyası nədir?

(1) **21.2 İzah edin ki, niyə sui-qəsd nəzəriyyələri cəmiyyətin müəyyən qrupları üçün aktiv vətəndaşlıqdan daha cəlbedici ola bilər.**

(2) **21.3 Konspirasiya nəzəriyyələri ilə aludə olmağın vətəndaşın real rifahına necə təsir etdiyini arqumentli şəkildə müzakirə edin. Alternativ demokratik proses haqqında mülahizə yürüdün.**

(5) **22. Mətnlə tanış olun və tapşırığı aşağıda verilən göstərişlərə uyğun olaraq yerinə yetirin:**

"Bu gün Nümayəndələr Palatası ticarət və qloballaşmanın işçi qüvvəmiz üzərindəki yükünü azaldacaq bir qanun təsdiqlədi. "Qloballaşma" sözü texnoloji dəyişikliklər və innovasiyalar nəticəsində getdikcə daha da kiçilən bir dünyanı təsvir edir. Qloballaşma bir növ qüvvə yox, inkişafda olan nəticələr kompleksidir: bəzi yaxşı, bəzi pis və bəzi də proqnozlaşdırılmayan. Bu, yeni reallıqdır."

**Con B. Larson, "Qloballaşma: reallıqla görüş" məqaləsindən bir parça.**

(1) **22.1 Mətndən irəli gələrək, diskussiyanın mövzusunu aydın şəkildə müəyyən edin və adlandırın. Mövzu sizə ikitərəfli diskussiya aparmaq imkanı verir. Seçdiyiniz diskussiya mövzusunun verilən mətnlə uyğunluğuna dair mülahizə yürüdün.**

(4) 22.2 A. Diskussiya zamanı yaranan mövqeni müdafiə etmək üçün iki arqument gətirin;

B. Diskussiya zamanı yaranan mövqeni inkar etmək üçün iki arqument gətirin.

(Hər bir arqument mahiyyətcə müstəqil bir fikir daşımalıdır).

## (9) 23. Verilən mənbələri təhlil edin və suallara cavab verin:

**Mənbə N1**

"Öz baxışlarını başqalarının baxışları ilə müqayisə edərək düzəltmək və tamamlamaq vərdişi, onun praktiki tətbiqinə şübhə və tərəddüd gətirmək bir yana, əksinə, ona olan etimadın doğruldulması üçün yeganə möhkəm əsasdır. Həqiqətən də, əgər insan onun əleyhinə deyilə biləcək hər şeyi eşidibsə və bütün rəqiblərinə rəğmən öz mövqeyində qalmışdırsa – çünki o, mübahisə və çətinliklərdən qaçmamış, əksinə, onları özü axtarmışdır; məsələnin hər hansı bir tərəfinə işıq sala biləcək bir mənbənin qarşısını almadığını dərk edirsə – onun, öz fikrinin belə bir prosesdən keçməmiş hər hansı digər insanın fikrindən daha üstün olduğunu düşünməyə haqqı var."

**Con Stüart Mil, "Azadlıq haqqında" 1859-cu il.**

***Mənbələrə keçid:*** *2 3 4 5*   ***Tapşırıqlara keçid:*** *23.1 23.2 23.3-23.7*

**Mənbə N2**

“Nitq qabiliyyəti bizi digər heyvanlardan və hələlik kompüterlərdən də fərqləndirəndir. Əgər bizim ondan sərbəst şəkildə istifadə etməyimizə mane olsalar, biz özümüz ola bilmərik. Bu, özümüzü başqalarına, nə qədər istəyiriksə, o qədər göstərmək deməkdir. Əgər əl-ayağımı bağlasanız, başıma parça örtsəniz və ağzımı yumsanız, mən düşünə bilərəm: “Mənim fikirlərim azaddır; bunu məndən ala bilməzsiniz”. Lakin bu ən daxili düşüncə azadlığı belə, ifadə azadlığından tamamilə ayrıla bilməz. Yazan və danışan hər kəs bilir ki, sən yalnız danışıq və yazı prosesində nə düşündüyünü aşkar edə bilərsən. “Fikir ağızda yaranır”, - dadaist Tristan Tzara deyib.”

**Timoti Qarton Eş, “Söz azadlığı”, 2016 il.**

***Mənbələrə keçid:*** *1 3 4 5*

***Tapşırıqlara keçid:*** *23.1 23.2 23.3-23.7*

**Mənbə N3**

“1704-cü ildə pamfletlə bağlı dövlət məmurlarını korrupsiyada günahlandıran İngiltərənin baş hakimi demişdir: “Əgər insanlarda “”bədxah fikirlər” oyadanlar cəzalandırılmasa, heç bir hökümət mövcud ola bilməz. Avtokratik idarəetmənin də müəyyən dozada xalq inamına ehtiyacı var və hər cür inam keçicidir. Hakimiyyət daim yenidən təsdiqlənməlidir və bunu etməyin yollarından biri qadağan olunmuş mətnlərin məhv edilməsindən bir tamaşa yaratmaqdır. Sin, Mao və İspan inkvizisiyası dövründəki hücumlarda da belə olmuşdur və bu günə qədər belə davam edir. Təhqiramiz materialların ictimai şəkildə məhv edilməsi, xüsusilə də odla yandırılması hökmdarın ictimai diskussiyanı idarə etmək və ən əsası da, seçilmiş mətnlərin ifadə etdiyi ideyaları silmək kimi təkbaşına preroqativini nümayiş etdirir. Fikirlər və nəzərlər insanların zehnində qalır – bu, tamamilə əhəmiyyətsizdir. Bu fikirlərin mövcudluğu özlüyündə bir təhqirdir və tamamilə faydasız olmasına baxmayaraq, müəyyən düzəlişlər edilməlidir. Mətnlərin məhv edilməsi, həqiqətdə, hökumətin etirafıdır ki, ona qarşı çıxan fikirlərlə birgə mövcud ola bilməz. Senzura, müxtəlif səviyyədə, hər zaman zəifliyin təzahürüdür.”

**Erik Berkovits, ,,Təhlükəli fikirlər”, 2021 il.**

***Mənbələrə keçid:*** *1 2 4 5* ***Tapşırıqlara keçid:*** *23.1 23.2 23.3-23.7*

**Mənbə N4**

“Mütəşəkkil cəmiyyətlər mövcud olduqca, hər zaman müəyyən dərəcədə senzura olmalıdır və olacaqdır. Lakin azadlıq, Roza Lüksemburqun dediyi kimi, “başqa insana verilən azadlıqdır”. Oxşar prinsip Volterin məşhur sözlərində də ifadə olunur: “Sənin dediklərinə nifrət edirəm; onu söyləmək hüququnu ölənə qədər müdafiə edəcəyəm”. Əgər şübhəsiz ki, hər zaman Qərb sivilizasiyasının ayrılmaz xüsusiyyəti olmuş intellektual azadlıq, ümumiyyətlə, hər hansı bir məna kəsb edirsə, o, cəmiyyətin qalan hissəsinə açıq şəkildə zərər verməmək şərti ilə, hər kəsin doğru hesab etdiyi şeyi demək və ya dərc etmək hüququna malik olması deməkdir.”

**Corc Oruel, “Mətbuat azadlığı”, 1972 il.**

***Mənbələrə keçid:*** *1 2 3 5*

***Tapşırıqlara keçid:*** *23.1 23.2 23.3-23.7*

**Mənbə N5**

“Dövlətin hökmdarı yazıçıya nifrət edir, çünki yazıçı fərqli düşüncə toxumları səpir. Hökmdar arzulayır ki, insanların düşüncəsinə mane ola bilsin və buna görə də o, həmişə sənətçiləri və yazıçıları günahlandırır ki, nizam-intizamlı bir dövlətdə qarışıqlıq yaradırlar.”

**Li Siun, 1881-1936 illər.**

***Mənbələrə keçid:*** *1 2 3 4*

***Tapşırıqlara keçid:*** *23.1 23.2 23.3-23.7*

(1) **23.1 N1 mənbəyinə əsasən, hansı halda insanın öz rəyinin başqasınınkından daha yaxşı olduğunu düşünməyə haqqı var?**

ა) Əksəriyyət də onun müdafiə etdiyi eyni fikirdədir;

ბ) Zamanın gedişi göstərir ki, onun fikirləri doğrudur;

გ) Əks fikirlərin müzakirəsinə baxmayaraq, öz fikrində qalır;

დ) Arqumentləri aydın və başqaları üçün anlaşılan formada ötürür.

(1) **23.2 N3 mənbəyinə əsasən, təkbaşına hökmdar niyə "təhqiramiz materialları" ictimai şəkildə yandırır?**

ა) Dövlətin milli maraqlarını qorumaq üçün;

ბ) Cəmiyyətin siyasi maariflәndirilməsini artırmaq üçün;

გ) Əhali arasında nifrətin yayılmasının qarşısını almaq üçün;

დ) İctimai diskussiyada təkbaşına nəzarəti nümayiş etdirmək üçün.

***Mənbələrə keçid:*** *1 2 3 4 5*

***Tapşırıqlara keçid:*** *23.1 23.3-23.7*

(1) **23.3 Con Stüart Milə görə, nə üçün cəmiyyətdə tənqidi fikirlərin olması vacibdir?**

(1) **23.4 Timoti Qarton Eşin mətninə görə, niyə fikir azadlığı ifadə azadlığından tamamilə ayrıla bilməz?**

(1) **23.5 Bir çox hallarda, senzura hökmdarın gücü kimi başa düşülür. N3 mənbədə Erik Berkovits hesab edir ki, senzura hökmdarın zəifliyinə işarə edir. Müəllifin bu fikrini əsaslandırın.**

(2) **23.6 Mənbələrə əsasən, Roza Lüksemburqun azadlığın başqa insana verilən azadlıq mülahizəsini izah edin. Corc Oruelə görə, ifadə azadlığının məhdudlaşdırılmasının obyektiv səbəbi kimi nəyi hesab etmək olar?**

(2) **23.7 İncəsənət və yazıçılığın ifadə azadlığı ilə nə əlaqəsi var? Arqumentləşdirilmiş şəkildə müzakirə edin ki, onların senzuradan qorunması niyə vacibdir.**